*Redaksiyaya məktub*

# Xalqıma təmənnasız xidmətə hazıram

Canlı jurnalistika məktəbi saydığım "Xalq qəzeti" redaksiyasına sevgi-sayğılarımı çatdırdıqdan sonra bildirirəm:

Mən 1934-cü ildə Zəngilan rayonunun Seyidlər kəndində anadan olmuşam. Xeyli vaxt rayon Komsomol Komitəsinin katibi, regional qəzetin şöbə müdiri işləmişəm. Sonra əmək fəaliyyətimi respublikanın aparıcı qəzetlərində ("Azərbaycan gəncləri", "Molodyoj Azerbaydjana", "Bakinskiy raboçiy" və "Azərbaycan") davam etmişəm. Hazırda təqaüdçüyəm, Xaçmazın Yergüc kəndində yaşayıram.

Mən doğma diyarıma qayıtmaq, möhtərəm Prezidentimiz İlham Əliyevin müzəffər komandanlığı ilə 30 illik işğaldan azad edilmiş və şanlı Zəfərdən dərhal sonra Qarabağda və Şərqi Zəngəzurda dövlət başçısının rəhbərliyi və gündəlik nəzarəti altında uğurla həyata keçirilən irimiqyaslı quruculuq işlərinin çevrəsində olmaq, əsas silahım olan qələmimlə, sözümlə fəal iştirak etmək istəyirəm. Məramım Xan çinarların vətəni sayılan, erməni vandalların bu nadir təbiət abidəsini yer üzündən sildiyi Zəngilanı sağlam və uzunömürlülər diyarına çevirməkdir.

Soruşa bilərsiniz: yaşı 90-ı adlamış qoca viranə qoyulan bölgədə nə iş görə bilər?

Bəli, yaşım çoxdur. Amma qoca deyiləm. Sinəmdə böyük quruculuq işləri aparan dövlətimizə yardımçı olmaq, ağır zərbə almış Vətənimizə və dərin sarsıntı keçirmiş Xalqımıza təmənnasız xidmət etrmək istəyən gənclik eşqli bir ürək döyünür. Güman edirəm, topladığım bilik və zəngin həyat təcrübəm, eləcə də insanlara nikbin ovqat aşılamaq bacarığım, "sağlam cisim – sağlam ruh" təməli üzərində vətənpərvər nəsil yetişdirmək kimi arxivacib bir məsələdə faydalı ola bilər.



Tam təmənnasız çalışmağa hazıram. Enerjim də var, yaşamaq və işləmək həvəsim də, aydın zəkam və güclü yaddaşım da.

Hörmətli həmkarlarım, indi mən öz missiyamı doğulub-böyüdüyüm, daim yurd sevgimin önündə yer almış Zəngilanımda davam etmək istəyirəm. Lakin "qaçqın" statusum və şəxsi ev tikmək imkanım yoxdur. Doğma diyara qayıdış yolumu kəsən yeganə maneə mənzil problemidir. Redaksiyanızın yardımı ilə bu məsələ həllini tapsa, ömrümün qalan hissəsini (mən 150 il yaşamağı qarşısına məqsəd qoymuş və bu yolun 30 ilini uğurla keçmiş yeganə azərbaycanlıyam) insanlara xidmət göstərməyə, Vətənimə vurulan yaranı sağaltmaq prosesində fəal iştirak etməyə hazıram.

***Hörmətlə: Ərşad Əzimzadə,***
***yazıçı-jurnalist,***
***sağlam həyat təlimçisi***

Xalq qəzeti.- 2025.- 12 iyul (№ 141).- S.13.